*AMEA*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2019, № 2*
*Səhifə: 162-169* *ISSN: 2663-4406*

**UOT:** 821.512.162(091)

Könül Cəbrayılova*

# SƏMƏD VURĞUNUN EPİSTOLYAR İRSİNİN AZƏRBAYCAN ƏDƏBİYYATININ İNKİŞAFINDA MÖVQEYİ

***Xülasə***

XX əsr Azərbaycan ədəbiyyatına Səməd Vurğun nə qədər təsir etmişdisə, bir o qədər də epistolyar janrın formalaşmasına təsir etmişdir. Məhz bu baxımdan Səməd Vurğunun simasında epistolyar irs anlayışı XX əsrin əvvəllərindən başlayaraq Azərbaycan ədəbiyyatında tamamilə yeni bir mərhələyə qədəm qoymuşdur. Baş verən böyük dəyişikliklər, kəskin siyasi mübarizə, öz xüsusiyyəti ilə fərqlənən ictimai-tarixi şərait əsrimizin əvvəllərində ölkəmizdə epistolyar irsin inkişafına həqiqətən, böyük təsir göstərmişdir. Məqalədə Səməd Vurğunun müxtəlif məzmunlu məktublarının Azərbaycan ədəbiyyatına təsiri təhlil olunur. Onun epistolyar irsinin Azərbaycan ədəbiyyatı ilə əlaqəsi nəzərdən keçirilir.

**Açar sözlər:** epistolyar, ədəbiyyat, Səməd Vurğun, Azərbaycan

## THE POSITION OF EPISTOLARY HERITAGE OF SAMED VURGUN IN THE DEVELOPMENT OF AZERBAIJANI LITERATURE

***Summary***

Samad Vurgun affected both the Azerbaijani literature of XX century and formation of epistolary genre. From this point of view, the concept of epistolary heritage by Samad Vurgun in the Azerbaijani literature stepped into a completely new period from the beginning of the XX century. The radical changes, the political struggle, the socio-historical conditions really had a great influence on the development of the epistolary heritage in our country.

In the article it is analyzed the influence of Samad Vurgun's letters in different content and its connection with the Azerbaijani literature.

**Key words:** epistolary, literature, Samad Vurghun, Azerbaijan

## МЕСТО ЭПИСТОЛЯРНОГО НАСЛЕДИЯ САМЕДА ВУРГУНА В АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЕ

**Резюме**

Влияние Самеда Вургуна на азербайджанскую литературу XX века сказалось и в формировании эпистолярного жанра. С этой точки зрения понятие эпистолярное наследие в лице Самеда Вургуна с начала XX века шагнуло в совершенно новый период в азербайджанской литературе. Происходившие в начале столетия коренные изменения, острая политическая борьба, особенные общественно-исторические условия действительно оказали большое влияние на развитие эпистолярного жанра в нашей стране.

В статье исследуется влияние и связь с азербайджанской литературой писем Самеда Вургуна различного содержания.

**Ключевые слова:** эпистолярное, литература, Самед Вургун, Азербайджан

**Giriş.** Epistolyar irs ədəbiyyatın başqa janrlarına nisbətən qismən azad vəziyyətdədir. Nəzm, nəsr, dramaturji əsərlər, hətta kino ssenarisi belə ədəbi janr xüsusiyyətlərinə möhtacdırsa, yaxşı yazılmış məktubların buna ehtiyacı yoxdur. Gözəl məktublar hər bir xalqın qəlbinə, hisslərinə çox tez və asanlıqla yol tapır, nüfuz edir, təsirləndirib düşündürə bilir. Elə buna görədir ki, məktublarda sə-

* Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu.

mimiyyət olduğu üçün ürəklərdə özünə daha tez məskən tapır. Məktublar insanların arzu və düşüncələrini birləşdirib, onları həyatın sərt qayda və qanunlarına qarşı mübarizəyə səfərbər edə bilir. Epistolyar irsin ali keyfiyyəti də elə buradan yaranır və bununla izah olunur.

Səməd Vurğunun simasında epistolyar irs anlayışı XX əsrin əvvəllərindən başlayaraq Azərbaycan ədəbiyyatında tamamilə yeni bir mərhələyə qədəm qoymuşdur. Baş verən böyük dəyişikliklər, kəskin siyasi mübarizə, öz xüsusiyyəti ilə fərqlənən ictimai-tarixi şərait əsrimizin əvvəllərində ölkəmizdə epistolyar irsin inkişafına həqiqətən, böyük təsir göstərmişdir.

Səməd Vurğun klassiklərin yaradıcılığına həssaslıqla yanaşan ustad bir şairdir. O, bədii lövhələr yaradarkən sözə qənaət edir, dərin fəlsəfi fikirlərini ifadə edərkən hikmətli beytlər, unudulmaz aforizmlər yaradır. Aşağıdakı məktubu oxuduqda hikmət dolu misralar oxucunun xəyalını qanadlandırır:

*"Osman Sarıvəlliyə*
*17 dekabr 1955-ci il, Bakı*

Əzizim Osman! Həkimlərin məsləhətinə görə Moskvaya getməli oldum. Sənin əlli illiyində iştirak etmək, sevinib gülmək mənə qismət olmadı. Ancaq hələ qabaqda sənin yetmiş beş illiyin var, mən onda mütləq iştirak edəcəyəm. O vaxt həkimlərin məsləhətinə qulaq asmayacağam. Əziz qardaşım! Qırx illik dostluğumuz üçün sənə öz minnətdarlığımı bildirirəm, çünki sən nəinki gözəl şairsən, eyni zamanda yüksək və alicənab bir insansan. Sənə uzun ömür, cansağlığı arzu edirəm. Qoy sənin qələmin daha yeni əsərlər yaratsın. Çünki sən şeir yazanda şair kimi yazırsan.

Öpürəm səni!

*Sənin Səməd Vurğunun" [1, s.285].*

Məktublarında insan xarakteri yaradan Səməd Vurğun zərgər dəqiqliyi ilə müşahidələrinin, təcrübələrinin yekununu yazır. Burada o detallar açar rolunu oynayır ki, şair onu dərin müşahidənin, iti fəhmin köməyi ilə tapıb və tapdıqdan sonra bədii sözlə ifadə edib:

*"M.Y.Vəkilova.*
*27 fevral 1942, Bakı.*

Əzizim Mehdixan!

Öpürəm səni. Mənim Moskvaya gedib qayıtmağım ay yarım çəkdi. Bakıya bu gün gəlmişəm. Mərkəzi Komitənin tapşırığı üzrə sovet xalqı üçün himn yazmaq lazım idi. Bütün şairlər bu işdə iştirak edir. Hələlik yazılmışlar içində mənim yazdığım bəyənilmişdir. Şəxsən Aleksandrov və Şerbakov tərəfindən çox xoşlanıldı. Başqa bir çox işlər də görmüşəm. Hər halda məndən iş barədə nigaran olmağa haqqın yoxdur. Özüm isə lap sağlamam və kefim kökdür. Uşaqlar lap yaxşıdır. Arvadlara gəlincə, çox möhkəm dostlaşmışlar. Görünür ki, bizim ümidimiz boşa çıxmadı… Ruqiyyədən nigaran olma, çünki arabir gecələr bizdə qalır. Xavər ona, o da Xavərə çox bağlanmışlar. Bir yerdə teatra, şəkillərini çəkdirməyə və hakəza gedirlər. Xavər səndən çox razılıq eləyir və sənə salam göndərir. Yoska deyir ki, əmimin şəklini bəzən alıb öpürəm və bağrıma basıram, bir də mənə dedi ki: "Mən elə bildim ki, əmim də səninlə bir yerdə gələcəkdir". Mənim ailəmin sənə qarşı belə bir münasibəti şübhəsiz ki, mənim xoşbəxtliyim deməkdir. Osmanı bərk-bərk öp. De ki, uşaqlardan nigaran olmasın, özü bilir ki, mən çox mehriban, vaxtlı-vaxtında baş çəkən bir adamam…

Daha nə yazım. Bilirsən ki, məktub yazmaq şeir yazmaq qədər asan deyildir. Yenə öpürəm səni. Yoska deyir ki, əmim mənə batareya göndərsin. Xavər də deyir ki, Ruqiyyə ilə mənə bir rəngdə paltarlıq alsın ki, bir rəngdə geyib sizə çıxmaq istəyirik. Sənə pul göndərəcəkdir. Allah Yusif ağaya rəhmət eləsin.

*Sənin Səməd Vurğunun" [2, s.426].*

Səməd Vurğunun yaşadığı dövrdə cəmiyyətin yuxarı təbəqəsində mövcud olan ədəbi haqsızlıqlara qarşı etirazı bir o qədər də kəskin deyil. Həyatın realistcəsinə dərin inikası onun son dövr məktublarında bir qanunauyğunluq kimi meydana çıxır.

Onun məktubları ideya və sənətkarlıq baxımından yüksələn xətt üzərində inkişaf edir, onu vətəndaş bir şairə, xalqını, vətənini sevən dönməz bir aşiqə çevirir. O, lazım bildiyi, gərəkli sandığı məsələlərdən yazır, ictimai, ədəbi və sosial məsələlərdən söz açır.

Səməd Vurğunun ev-muzeyində mühafizə olunan bir sıra materiallar – ailəsinə yazdığı məktublar, onun respublika rəhbərliyinə ünvanladığı məktub, ərizə və teleqramın surətləri, xüsüusən, M.Quluzadənin "ədəbi səyahəti" adlı məktub-məqaləsi vardır. Sonralar bu məktubu şairin qızı – Aybəniz xanım Vəkilova "Yeni fikir" qəzetində dərc etdirmişdir.

Sənətdəki gözəlliyin sirlərini kəşf etmək, böyük fikirləri duymaq və müdafiə etmək, dərin inandırıcılıq – onun tənqid sənətindən əsas tələbi bu xüsusiyyətlərdir və məhz həmin xüsusiyyətlər Səməd Vurğunun öz məktub yaradıcılığında kəsb etdiyi konkret ideya-məfkurə və emosional məzmunu, onun rəğbət bəslədiyi estetik sistemi, ədəbi tənqid konsepsiyasını xarakterizə edir.

Səməd Vurğun Azərbaycan ədəbiyyatı üzərində uzun zaman tədqiqat aparmışdır. Bu, onun məktublarında da izsiz qalmamışdır. Müəllifin ən çox meyil elədiyi mövzu ədəbi tənqiddir. Bu, həm ümumi yaradıcılığında, həm də haqqında danışdığımız məktublarında görünür. Onun daha maraqlı məktubları məhz tənqidin problemləri ilə bağlıdır. Bu məktublarda tənqidçinin maraqlı ümumiləşdirmələri, müşahidələri və müqayisələri çoxdur.

Səməd Vurğunun məktublarında onun realizmi ilə xəlqiliyini bir-birindən ayırmaq mümkün deyil. Bu məktublarda realist, həqiqətə uyğun, inandırıcı bədii təsvir xəlqiliklə birləşmişdir. Yəni bu məktubların elə bir sözü yoxdur ki, o, qeyri-səmimi, yabançı görünsün, insanların zövqünə, həyatına, arzularına müvafiq gəlməsin.

Səməd Vurğun öz məktubları ilə şairlərimizin, yazıçılarımızın əsərlərini ədəbi fikir prizmasından keçirərək, tarixçi, dilçi və ədəbiyyatşünas alimlərimizin, ziyalılarımızın qayəsini və ideya yönümünü istiqamətləndirmək üçün zəmin hazırlayırdı:

*"Azərbaycan Yazıçılar İttifaqının çağırdığı ədəbi tənqid konfransına məktub.*
*Fevral, 1941-ci il.*

Yoldaşlar! Mən xəstə olduğumdan tənqid konfransında iştirak edə bilmədim. Odur ki, müxtəsər olsa da, öz arzularımı sizə məktubla bildirmək istəyirəm.

Belə bir konfransın çağırılmasına şübhəsiz ki, bütün ədəbiyyatımızın ehtiyacı vardı. Demək istəyirəm ki, bu konfrans yalnız tənqidimiz və onun vəzifələri ətrafında deyil, bütün ədəbiyyatımızın taleyini, onun qarşısında duran məsələləri, onun gələcək inkişaf yollarını göstərəcək bir yaradıcılıq konfransı kimi keçməlidir. Bu məqsədlə də mən belə bir konfransın çağırılmasını təklif etmişdim.

…Bir şeyi də qeyd etmək istəyirəm. Nə üçün bizim müasir mövzulara həsr olunmuş əsərlərimiz çox vaxt səthi və az bədii olur? Bu məsələ ətrafında uzun-uzadı mübahisələr aparmaq olar və lazımdır. Eyni zamanda bir səbəb yox, bir çox səbəb göstərmək olar. Bunlardan, bəlkə də ən əsas səbəblərdən biri budur: hər hansı bir əsərin əsasında möhkəm və düşündürücü bir ictimai konflikt durmalıdır. Çünki konflikt nə qədər dayaz olarsa, əsər də o qədər dayaz olar. Ədəbiyyat tarixi göstərir ki, ən çox ömür sürən əsərlər böyük tarixi konfliktlər üzərində qurulmuş əsərlərdir.

Bizim dövrümüzdə də bu mürəkkəb və düşündürücü konfliktlər varmı? Mən bu sualı təsadüfi vermirəm. Çünki bir çox yazıçılarımız, məsələn, Əbülhəsən yoldaş və başqaları belə bir «nəzəriyyə» irəli sürürlər ki, guya sosializm dövründə, yəni sinifsiz cəmiyyət dövründə dərin ictimai konfliktlər ola bilməz. Buna görə də o yazıçılar "ortabab", sakit təbiətli bir yazıçı olmaqla kifayətlənirlər.

Biz onların yeni hekayələrində böyük ehtirasların, xarakterlərin üz-üzə, qılınc-qılınca çarpışmasını görmürük. Bu əsərlər o qədər ehtirassız və cansız olurlar ki, onları öz içində mızıldayan və başı gora titrəyən qarılara bənzətmək olar ki, onların səsini özlərindən başqa kimsə eşitmir.

Vay o gündən ki, bədii əsərin səsi öz içində qalsın, o ya qulaqlara heç çatmasın, ya da ki bir çibin vızıltısı kimi zəif və mənasız olsun. Məncə, tənqidimiz bu "nəzəriyyə"yə qarşı çox amansız olmalıdır" [3].

Səməd Vurğunun məktublarında həm dərin və əhatəli mütaliəsi üzərində dönə-dönə işləməsi, həm təkrar və təqlid təzahürlərindən qaçıb hər sözü orijinal demək ehtirası, həm də şeir-sənət məsələlərində oxucu kütləsi ilə hesablaşmaq mədəniyyəti aydınca görünməkdədir. Səməd Vurğun şair səmimiyyəti ilə qeyd edir ki, sələflərinin işlətdiyi məna və məzmundan, obraz və təşbehlərdən, ibarə və ifadələrdən imtina etmiş, gecə-gündüz yaradıcılıq əzablarına qatlaşaraq orijinal əsərlər meydana gətirmişdir. Şairin nəzərində yaradıcılıq orijinallıq deməkdir və bu iki məfhum bir-birini tamamlamalıdır.

Rəsul Rza yazırdı:

«O, ancaq 50 il yaşadı. Əgər onun həyat yolunu nə etmiş olduğu ilə ölçsək, onda Səməd Vurğun ömrünün onlarla həyata bərabər olduğu görünər. Yüzlərlə şeir, onlarla poema, neçə mənzum pyes, çoxlu məqalə. Böyük istedadlı şair-dramaturqun ədəbi irsinin ancaq üzünü köçürmək lazım gəlsə, buna illər tələb olunar…

…Azərbaycan xalqı yaşayıb yaratdıqca, onun əziz şair oğlu Səməd Vurğunun adı yaşayacaq, dillərdən düşməyəcək" [1, s.198].

S.Vurğun Azərbaycan tarixinin öyrənilməsini vacib bir məsələ kimi qarşıya qoymuş, tariximizin hansı səhifələrinin ilk növbədə öyrənilməsi üçün tövsiyələr vermişdir. Şair Azərbaycan dövlətinin və dövlətçiliyinin, dövlət quruluşu ənənələrinin tarixinin, habelə ayrı-ayrı dövlət xadimlərinin, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətinin ilk növbədə öyrənilməsini tövsiyə etmişdir. O, həm də tarixi mövzuda əsərlər yazmış, bu sahədə mövcud boşluqların doldurulmasına öz töhfəsini vermək istəmişdir. Bunu onun Azərbaycan filosofu Heydər Hüseynova yazdığı məktubdan bir daha aydın görmək olur:

*"H.N.Hüseynova*
*17 iyul 1943, Şüvəlan*

Mən bağdayam. Yəqin ki, sən bu gün gələcəksən. Mənə Prometey haqqında, bir də Avesta haqqında vəd verdiyin kitabları özünlə gətir. Oxumağa çox ehtiyacım var. Yeni sözlər demək üçün tarixi yaxşı bilmək lazımdır. Sağ ol!

*S.Vurğun" [1, s.249].*

1945-ci ilin oktyabrında Bakı şəhərində Azərbaycan-İran Mədəni Əlaqələr Cəmiyyəti yaradılmış və Səməd Vurğun bu cəmiyyətin sədri seçilmişdir. O, cəmiyyətin sədri kimi İranla, xüsusən Cənubi Azərbaycanla mədəni əlaqələrimizin inkişafı üçün səmərəli fəaliyyət göstərmiş, onun rəhbərliyi altında konkret tədbirlər həyata keçirilmişdir. Cəmiyyətin sədri Səməd Vurğun 6 mart 1946-cı ildə SSRİ Xarici İşlər Naziri Molotova İran Azərbaycanı və bütünlükdə iki ölkə arasında mədəni əlaqələrin yaxşılaşdırılması və genişləndirilməsi üçün yazmışdır. Şair məktubda bu tədbirlərin həyata keçirilməsi üçün lazımi vəsait ayrılması məsələsini də qaldırmışdır.

Səməd Vurğun rəsmi üslublu məktublarında fikir və ideyalarının ciddiliyi ilə seçilir. O, həyatın nəbzini tuta bilən, ətrafında baş verən hadisələri müşahidə etməyi və müəyyən məntiqi nəticələr çıxarmağı bacaran şair olmuşdur. İctimai-siyasi görüşlərinin, xüsusən də cəmiyyətə baxışlarının təhlili göstərir ki, o, mükəmməl konsepsiya yaratmasa da, ötəri nəzəriyyəçilikdən də uzaq olmuşdur.

Mütəfəkkirin ideyaları repressiyanın vüsət aldığı bir ölkədə formalaşsa da, o, ictimai-siyasi və ədəbi prosesləri yönləndirməyi bacarırdı:

*"Azərbaycan Yazıçılar İttifaqının çağırdığı ədəbi tənqid konfransına məktub. Fevral 1941.*

…Tənqidimiz yüksəlməlidir. Elə yüksəlməlidir ki, istər ayrı-ayrı yazıçıların, istərsə də bütün ədəbiyyatımızın taleyini təmin edə bilsin. O, yoldan azdığımız zamanlar bir mayak kimi bizə yol göstərməlidir. Bunun üçün də tənqidçidən böyük idrak, geniş ürək və uzaqgörən göz tələb olunur. O bizim yaratdığımız əsərləri geniş xalq kütlələrinə çatdırmaq işində özünün böyük vəzifəsini görməlidir.

…Bir də iftixarla demək lazımdır ki, bizim tənqidçilərimiz arasında gözəl bədii zövqə və elmi səviyyəyə sahib yoldaşlarımız da az deyil. Bizim onlara qulaq asmağımız heç olmazsa, yazıçılıq borcumuz olmalıdır. Bu yoldaşlar bir çox bədii tənqidlər, tarixi məqalələr yazmışlar ki, onlardan şəxsən mən çox istifadə etmişəm. Məsələn, Məmməd Arif, Mikayıl Rəfili, Hüseyn Mehdi, Əziz Şərif, Hidayət Əfəndiyev, Məmməd Cəfər Cəfərov, Əkbər Ağayev və başqaları kimi tənqidçilərimiz, ədəbiyyatşünaslarımız vardır...

Tənqid konfransı şeirlərimizin taleyi ilə xüsusi məşğul olmalıdır. Bilirsiniz ki, indiki şeirimizdə ümumən bir yeknəsəqlik, bir-birini təkrarlamaq xəstəliyi var. Bu ondan irəli gəlir ki, şairlərimiz yeni formalar uğrunda mübarizə aparmırlar. Biz çalışmalıyıq ki, ədəbiyyatımızda müxtəlif yaradıcılıq cərəyanları inkişaf etdirilsin" [2].

Səməd Vurğunun bu məktubundan aydın olur ki, Azərbaycan da daxil olduğu keçmiş sovet respublikalarının ədəbiyyatının vəziyyəti onu çox maraqlandırmışdır. Şair daha sonra bu məktubunda bildirmək istəyir ki, ədəbiyyatda nəzəriyyə və tənqid sahəsinə, yəni onun nəzəri və estetik fikir nailiyyətlərinə daha çox diqqət ayrılsın.

Sadəliyə, səmimiliyə daha çox üstünlük verən şair bu məktubunda bir daha qeyd edir ki, qurultay təmtəraqdan uzaq olmalıdır və ali tədbirdə ədəbiyyatda mövcud olan bütün ədəbi cərəyan və istiqamətlər ətrafında geniş müzakirə və diskussiyalar aparılmalıdır.

Maraqlıdır ki, Səməd Vurğun bu məktubunda keçmiş sovet ədəbiyyatının söz deməyə qadir, sayılıb-seçilən bir ədəbi sənətkarı kimi gözümüzün önündə canlanır.

Sonrakı dövrlərdə məhz bu missiyasının davamı olaraq bir çox Azərbaycan yazıçı və şairlərinin yaradıcılığı ədəbi müstəvidə tədqiq edilmiş, bu mövzularda çoxlu dissertasiya işləri, məqalələr və monoqrafiyalar yazılmışdır. Lakin hər bir işin əsasını qoymaq və yol göstərmək daha çətin və daha şərəflidir. Məhz Səməd Vurğun Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti olanda belə işləri görə bildi.

AMEA-nın müxbir üzvü Əziz Mirəhmədov yazır: "Səməd Vurğun akademik şərəfini, vitse-prezident adını tam doğruldurdu. Alimlər onun fikirlərinə, məsləhətlərinə hörmət və ehtiramla yanaşır, əməl edirdilər.

…Ədəbi ictimaiyyətin Səməd Vurğun sözünə, Səməd Vurğun rəyinə böyük ehtiyacı və etibarı vardı. Şair özü də yaxşı dərk edirdi ki, vəziyyətinə, vəzifəsinə, nüfuzuna görə müəyyən mübahisələrin çoxuna bir münsif kimi "son sözü" o deməlidir. Səməd Vurğun bu vəzifənin öhdəsindən bəzən bircə replika ilə gəlirdi" [1, s.205].

Tanınmış türk şairi Nazim Hikmət Azərbaycan xalqının Səməd Vurğuna bəslədiyi məhəbbəti çox gözəl ifadə edərək demişdir: "Əgər Azərbaycan xalqının Səməd Vurğuna bəslədiyi məhəbbətin yarısı qədər türk xalqı mənə məhəbbət bəsləsəydi, rahat ölərdim". Adi danışığı da şeir olan Azərbaycan xalqının məhəbbətini qazanmaq, sevimlisinə çevrilmək şair üçün ən böyük səadətdir. Elini, obasını, yurdunu, yuvasını sevməyən, xalqı ilə gülüb, xalqı ilə ağlamayan sənətkar sevilə bilməz [4, s.6].

Epistolyar irsi ilə doğma xalqının yaddaşında qalan, gözəllik, harmoniya şairi, saflıq və səmimiyyət ustadı Səməd Vurğun kimi oğlu olan xalq doğrudan da xoşbəxtdir.

Azərbaycanın İstiqlal ordenli şairi Xəlil Rza Ulutürk yazır: "Hər bir xalqın həyatında elə məfhumlar, elə sözlər var ki, onlar doğma torpağa, əsrlərin dərinliyinə, xalq mənəviyyatına çox dərin köklər salmış, əbədi rişələrlə bağlanmışdır. Azərbaycanda Qobustan qayaları, Gəncə, Göy göl, Möminə Xatun məqbərəsi, Babək qalası, Araz, Kür, Füzuli, Misri qılınc, Koroğlu, Sabir, Üzeyir və b. belə məfhumlardır. Mən bu müqəddəs siyahını Səməd Vurğunsuz təsəvvür edə bilmirəm…

…Bir dəfə kimsə Səməd Vurğuna aksent ilə danışmasını bildirib. Səməd Vurğun cavab verib ki, aksent ilə danışmaq mədəniyyətdir. Yalnız milli simasını itirmişlər aksentsiz danışırlar" [1, s.202].

Səməd Vurğun gözəl şeirlər, poemalar yazmaqla yanaşı, məktub yazmağa da qol-qanad vermiş, bununla oxucularının sayını qat-qat artırmışdır. Bu məktublar həqiqətən, şairin yaradıcılığında xüsusi əhəmiyyətə malikdir. Onlar öz yeniliyi ilə şairin həyatına, poeziyasına və ədəbiyyatımıza bir çox yeniliklər gətirmişdir.

Azərbaycanın xalq şairi Nəbi Xəzri yazır: "Azərbaycanın sadiq oğlu Səməd Vurğun bu gün bütün dünya ədəbiyyatına məxsus sənətkardır.

Səməd Vurğun poeziyası – Azərbaycan xalqının məğrur ürək döyüntüsüdür. Xalq əbədi olduğu kimi, Vurğun poeziyası da əbədi və ölməzdir.

Biz dünənə dərin hörməti (çünki o, tarixin özünü də müasirləşdirib), bu günə isə dərin məhəbbəti ondan öyrəndik. Sabaha gedən addımlarımızı da onun müzəffər addımları ilə ölçürük.

Səməd Vurğun xoşbəxt taleli sənətkardır. O, hələ sağlığında əfsanələr haləsi ilə bəzənmişdi. Sağlığında klassikləşmişdir. Ümumxalq məhəbbəti qazanmışdı. Sənəti şəxsiyyətini, şəxsiyyəti də sənətini tamamlayırdı.

O öz böyük məhəbbətini, ürəyinin odunu-alovunu, arzu və diləklərinin bahar burulğanlarını, ömrünün kamillik və müdriklik illərini – bütün əməyini, zəhmətini, hər şeyi, hər şeyi əbədiyyətə tapşırıb gedirdi.

Hərdən insana elə gəlir ki, Səməd Vurğunun yazdıqlarının üzünü köçürmək üçün bir ömür azlıq edər…" [1, s.201]

İnsanın yüksək sosial keyfiyyətləri, ictimai ləyaqəti, əməksevərliyi, namuslu olması bütövlükdə onun mənəvi qüdrətidir, emosional sərvətidir, sözün müəyyən mənasında isə mədəni simasının göstəricisidir. İnsanın daxili mədəniyyəti, mənəvi nüfuzu xüsusilə əməyə münasibətdə – yaradıcılıqda təzahür edir. Yaradıcılıq ən nüfuzlu müəllim, qüdrətli tərbiyəçidir. Bu mənada əməyə yaradıcı, vicdanlı münasibətin tərbiyə olunması mədəni insanın formalaşdırılması üçün mühüm və spesifik şərtdir. Artıq yalnız özün üçün, "özününkülər" üçün deyil, eləcə də başqalarının, xalqın mənafeyi naminə çalışmaq, cəmiyyətin zəhmətkeş və istedadlı, namuslu üzvlərinin həyatına sevinc və fərəh bəxş etmək vaxtıdır. Bu missiyanı Səməd Vurğun öz məhsuldar yaradıcılığı ilə sübut etmişdir.

Azərbaycanın Ümummilli lideri Heydər Əliyev demişdir:

"XX əsrdə mədəniyyətimizdə, ədəbiyyatımızda, ictimai-siyasi həyatımızda Səməd Vurğunun xidmətləri olduqca böyükdür və ona görə də xalq onu sağlığında da sevib, ona sitayiş edib. İndi artıq 40 ildir ki, o, dünyasını dəyişib, ancaq xalq nəinki onu unutmur, daim onun yaradıcılığından bəhrələnir, onun əsərlərini sevə-sevə oxuyur, onun əsərlərinin təsiri altında tərbiyələnir. Bu gün müstəqil Azərbaycanda milli azadlıq şəraitində Səməd Vurğunun əsərləri bizim hamımız üçün və xüsusən gələcək nəsil üçün, bu günün gənc nəsli üçün böyük bir sərvətdir."...

…Səməd Vurğunu biz təkcə şair kimi, yazıçı kimi yox, eyni zamanda böyük bir ictimai-siyasi xadim kimi həmişə xatırlayırıq və o, tariximizə belə daxil olubdur. Ən gənc yaşlarından Azərbaycanın o dövrdəki ictimai-siyasi həyatında çox böyük fəaliyyət göstərib. Keçmiş Sovetlər İttifaqı miqyasında onun böyük fəaliyyəti məlumdur. Xüsusən, İkinci Dünya müharibəsindən sonra sülh uğrunda mübarizə hərəkatında Səməd Vurğun beynəlxalq aləmdə çox böyük fəaliyyət göstərmişdir və bunların hamısı eyni zamanda bizim xalqımızın adını, hörmətini daim ucaltmışdır.

…Səməd Vurğun ailəsinə mən həmişə böyük hörmət və ehtiramla münasibət göstərmişəm. Gənc vaxtlarımdan Səməd Vurğunun şeirlərini, əsərlərini sevərək, onların təsiri altında təhsil almışam, həm də formalaşmışam. Ona görə də onun ədəbi irsinə Azərbaycanda həmişə böyük hörmət edilməsi və ondan istifadə olunması üçün bütün imkanlardan istifadə edib lazımi tədbirlərin görülməsinə çalışmışam.

…Azərbaycanın dövlət müstəqilliyi, dünya birliyinə daxil olması, xalqımızın öz milli azadlığını əbədi olaraq əldə etməsi böyük nailiyyətdir. Bu nailiyyətlər bizdən əvvəl yaşamış nəsillərin, mütəfəkkir insanların da nailiyyətidir. Səməd Vurğun onların içərisində çox görkəmli yer tutur" [5].

Səməd Vurğunun məktublarının bir əhəmiyyətli cəhəti ondan ibarətdir ki, onların əksəriyyəti yeni axtarışlarla bağlıdır. Bu məktublar özündən əvvəlki bədii üslublar, cərəyanlar və müxtəlif yaradıcılıq istiqamətlərinə nisbətən təsvir vasitələrini zənginləşdirmək yolu ilə həyatın daha real və inandırıcı əks etdirilməsi uğrunda mübarizə edir, müasirin gələcəyə keçidində mürəkkəb dəyişkənliyin ifadəli lövhələrini əks etdirir.

Səməd Vurğunun məktublarının coğrafiyası çox genişdir. O, təxminən otuz iki il müddətində dünyanın tanınmış adamları ilə məktublaşmışdır. Latviyanın Riqa şəhərindən – Yan Sudrabkaln, Moskvadan – Aleksandr Fadeyev, Nikolay Tixonov, Konstantin Simonov, Əziz Şərif, Gürcüstandan Georgi Geonidze, Özbəkistandan Tamara xanım, Başqırdıstandan Axniyar Kiriyeri Səməd Vurğunun məktublaşdığı şəxslərdir.

Şair dünyanın bir sıra tanınmış simaları ilə məktublaşmaqla otuz iki ildən çox bir zaman kəsiyində ədəbiyyatımızı, xalqımızın ədəbi fəaliyyətini, bu mühüm tarixi prosesdəki rolunu bədii şəkildə əks etdirməklə qalmayıb, onun daha geniş diapozona və kütləviliyə malik olmasına və beləliklə də vətənimizdən uzaqlarda bütöv bir xalqı tanıtmaq, təmsil etmək vasitəsinə çevrilməsinə də nail olmuşdur. İndi bizim ədəbiyyatımız dünyanın bir çox ölkələrində oxunur, sevilir və tədqiq edilir. Səməd Vurğunun epistolyar irsinin bir əhəmiyyəti də məhz bundan ibarətdir.

Səməd Vurğun öz poeziya sənəti ilə Azərbaycana böyük hörmət qazandırır, xalqımızı başqa millətlərə sevdirə bilirdi. Çox vaxt bizi onun simasında tanıyır, sevirdilər. Gürcü şairi İrakli Abaşidze yazırdı:

"Sizin qədirbilən, zəhmətsevər xalqla dostluğumdan çox razıyam. Günəşli Azərbaycanı dünyanın hər yerindən görürəm. Çünki onun bizim hamımızın əziz dostu olan Səməd Vurğun kimi uca zirvələri var" [1, s.191].

Filologiya elmləri doktoru, professor Kamil Vəli Nərimanoğlu isə özünün "Sözün sehri" kitabında yazır:

"Alma-Ata şəhərində tarixçi, görkəmli arxeoloq, qorqudşünas, sovet şərqşünaslığının korifeylərindən biri Əlqey Marqulanla görüşdük. Bir neçə dəfə ölümün caynağından qurtarmış bu mərd qoca, yorulmaz alim bizi böyük mehribanlıqla qarşıladı, kövrəldi və dedi: "Mən hər dəfə azərbaycanlı görəndə elə bil Səməd Vurğunu görürəm. Siz hamınız mənim unudulmaz dostumun balalarısız" [6, s.65].

Hər məktubun öz taleyi var. Əldən-ələ keçib sahibinə hörmət gətirən məktub da var, bircə dəfə əl dəyilib cırılıb atılan da. Məktub var ki, bəzi insanların şəxsi arxivindən, kitabxanalardan toz-torpaq içərisindən tapılıb bir insanı, bir xalqı, bir ölkəni hörmətə qaldırır. Məktub da var ki, yazanı ilə bərabər, mənsub olduğu xalqı, dövləti də hörmətdən salır…

Səməd Vurğunun ürəkdən gələn məktubları xoş məqsədə çatmaq, xalqına, insanlara sevinc bəxş etmək üçün yazılıb. Bu məktublar həqiqətən müəllifinə böyük hörmət gətirir, onu oxuyanın gözündə qaldırır.

Səməd Vurğunun məktublarını oxuduqca, dilimizin, ədəbiyyatımızın keçib gəldiyi yolu göz önünə gətirdikcə, müəllifinə ancaq heyran qalıb, onun həmişəyaşarlığına bir daha inanırsan.

Dünya miqyaslı rus yazıçısı Mixail Şoloxov göstərirdi ki, "elə təkcə onun xarici görünüşünün özü bədii əsər üçün müdrik bir obraz idi. O, gözəl və əvəzsiz insan idi. Onun ölümü biz yazıçıların qəlbinə, ürəyinə dağ çəkdi…

Azərbaycanlı analara deyərsiniz ki, Səməd Vurğun kimi oğul doğanda onu yaşatmaq lazımdır, yaşatmaq! Tez-tələsik qara torpağa vermək yox, Səməd Vurğun sovet poeziyasının nadir istedadlı nümayəndələrindən idi. Səməd Vurğun gözəl və əvəzsiz insan idi. Azərbaycan sovet şeirindən ən çox onun əsərlərini oxuyuram" [1, s.172].

**Nəticə.** Böyük, tanınmış şəxsiyyətlərin Səməd Vurğun haqqında yuxarıda qeyd olunan fikirləri onu göstərir ki, onun yaradıcılığı və epistolyar irsi insanları təsirləndirmiş, onlara yeni istiqamət vermişdir. Səməd Vurğunun yaradıcılığından güc alan sosial-siyasi görüşləri, o cümlədən məktubları müasir Azərbaycan ədəbiyyatının inkişafı və indiki nəslin dünyagörüşünün formalaşması üçün çox faydalıdır. Humanist mütəfəkkirin sosial ədalətlə bağlı ideyalarının dəyəri, həmin ideyaların xalq mənafeyini yüksək tutmasında və öz millətinin, xalqının səadəti naminə ümumbəşəri idealları özündə ehtiva etməsindədir.

## ƏDƏBİYYAT

1. Səməd Vurğun. Əsərləri: 6 cilddə, VI c. Bakı, Azərbaycan EA nəşriyyatı, 1972.
2. "Ədəbiyyat qəzeti", 23 fevral 1941.
3. "Yeni fikir" qəzeti, 9 fevral 1990-cı il.
4. Səməd Vurğun. Muğamat və xalq mahnılarının ifası haqqında. "Ədəbiyyat və incəsənət" qəzeti, 12 fevral 1988-ci il.
5. "Azərbaycan" qəzeti, 21 dekabr 1995-ci il.
6. Vəliyev K. Sözün sehri. Bakı, "Yazıçı", 1986.